

# «Mülki müdafiə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi məsələlər barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Mülki müdafiə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar **qərara alıram:**

1. Müəyyən edilsin ki:

- «Mülki müdafiə haqqında» Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin ikinci hissəsində və 16-cı maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş «Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;
- həmin Qanunun 11-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini öz səlahiyyəti hüdudlarında Azərbaycan Respublikasının *Fövqəladə Hallar Nazirliyi*, Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi və *«Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyəti* həyata keçirirlər;
- həmin Qanunun 20-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının *Fövqəladə Hallar Nazirliyi* həyata keçirir;
- həmin Qanunun 17-ci maddəsinin birinci hissəsində və 18-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini öz səlahiyyəti hüdudlarında Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 15 iyul 2000-ci il***

***№ 375***